AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

# Azərbaycan Respublikası
# Ali Məhkəməsinin Mülki Kollegiyasının
# 2023-cü il üzrə fəaliyyətinə dair
# **H E S A B A T**

**MÜNDƏRİCAT**

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2023-cü il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat........................**3-6**

2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2023-cü il üzrə icraatında olan işlərə dair məlumat................................................. .**7-26**

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili.......................................................................................... . **27-44**

## Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2023-cü il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası (bundan sonra – Mülki Kollegiya) 2023-cü ilin əvvəlində 15 hakimdən ibarət heyətlə fəaliyyət göstərmiş, lakin cari il ərzində Mülki Kollegiyanın hakimi Ələsgər Əliyevin fəaliyyətinə hakimlik üzrə son yaş həddinə çatması ilə bağlı xitam verilmişdir. Hazırda Mülki Kollegiya hakimlər Sənan Hacıyev (Mülki Kollegiyanın sədri), Mehparə Əhmədova, Əhməd Nurməmmədov, Əhməd Əhmədov, Elşanə Vəliyeva, Abiddin Hüseynov, Vüqar Həsənov, Zaur Əliyev, Elşad Şamayev, Aqil Abbasov, İspəndiyar Şəfiyev, Zəki Babayev, Vidadi Məmmədov və Əhliman Xıdırov olmaqla, 14 hakimdən ibarət tərkibdə fəaliyyət göstərməkdədir.

**1.** Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Mülki və Kommersiya Kollegiyaları 2023-cü il ərzində “Azərbaycan Respublikası Ailə Məcəlləsinin 55.3-cü maddəsinin tətbiqi üzrə” və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 59.4-cü maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə” mübahisəli hüquqi məsələlərlə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət etməklə müvafiq qərardadlar qəbul edilmişdir. Mübahisəli hüquqi məsələlərə hüquq ictimaiyyətinin diqqətini çəkmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin (bundan sonra – Ali Məhkəmə) internet səhifəsi və sosial şəbəkələr vasitəsilə verilmiş məlumat nəticəsində maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və ayrı-ayrı təşkilatlar tərəfindən çoxsaylı yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) təqdim edilmiş, nəticədə qərarların qəbulunda şəffaflıq və ictimaiyyətə açıqlıq təmin olunmuşdur.

**2.** Azərbaycan Respublikasında vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından əhəmiyyətli olan məhkəmə aktlarının müəyyənləşdirilməsi və onlara əlçatanlığın təmin edilməsi məqsədi ilə “Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi Qaydaları”nın layihəsi hazırlanaraq Ali Məhkəmənin Plenumunun müzakirəsinə təqdim edilmiş və Plenumun 2023-cü il 4 noyabr tarixli qərarı ilə təsdiq edilmişdir.

**3.** Mülki Kollegiya 2023-cü il ərzində qəbul etdiyi qərarlarla qanunverciliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı çoxsaylı hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırmışdır. Bununla yanaşı, “Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi Qaydaları”nın 2023-cü il 4 noyabr tarixində qəbulundan sonra 14 iş üzrə 3 ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə qərarları qəbul edilərək, yeni axtarış sisteminə daxil edilmişdir.

**4.** Hesabat ilində “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın 8-ci maddəsinin mənzil hüququnun təminatı istiqamətində və “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi” tələbinə dair işlər üzrə qanunvericiliyin tətbiqinə dair Azərbaycan Respublikasının rayon (şəhər) və apellyasiya məhkəmələrinə müvafiq icmal məktubları göndərilməklə, Mülki kollegiyanın qərarlarında nümayiş etdirilmiş hüquqi mövqeləri əks etdirən ümumiləşdirilmiş izahların məzmunu çatdırılmışdır.

**5.** Mülki məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə Mülki Kollegiya tərəfindən təkrar kassasiya icraatında olan apellyasiya instansiyası məhkəmələrinin qətnamələrinin ləğvi əsasları təhlil edilmişdir.

**6.** Hesabat dövrü ərzində Mülki Kollegiyanın məhkəmə tərkibləri tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə 3 iş üzrə qanunvericiliyin müxtəlif maddələrinin şərh edilməsinə dair müraciətlər edilmişdir. Həmin müraciətlərdən biri üzrə Konstitusiya Məhkəməsinin Plenumunun qərarı dərc edilmiş, digər ikisi isə hazırda xüsusi konstitusiya icraatında qalmaqdadır. 2022-ci ildə verilmiş bir sorğu üzrə isə Konstitusiya Məhkəməsi Plenumunun qərarı 29 mart 2023-cü il tarixdə dərc edilmişdir.

*Qərar: "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399, 421.3, 423.2, 424.3 və 447-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 29 mart 2023-cü il tarixli qərarı;*

*Qərar: "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 dekabr 2023-cü il tarixli qərarı;*

*Sorğu: "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci və 3-cü hissələrinin və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1,50.1,50.4-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair"*

*Sorğu: "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 50.1 və 53-cü maddələrinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139-1.1.2 və 139-1.1.4-cü maddələrinin və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.2 və 8.0.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi və 129-cu maddəsinin I və II hissələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair"*

**7.** Hesabat dövrü ərzində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin icraatında olmuş aşağıdakı 12 məsələ üzrə yazılı mülahizələr verilmişdir:

*- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477 və 558-ci maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 58, 257 və 258-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243-cü maddəsinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 4.1, 218.3, 306.4 və 307.2.9-cu maddələrinə uyğunluğu yoxlanılmaqla Azərbaycan Respublikası Konstitusiyasının 60-ci maddəsi baxımından şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 267.1 və 402.2-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-ci maddəsi ilə müqayisəli şəkildə şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci bəndinin şərh edilməsinə dair;*

*- "İpoteka Haqqında" Azərbaycan Respublikası Qanununun 36.1, 36.2, 37.1 və 38.1-ci, "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinin 6-ci hissəsi, eləcə də Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269.1, 269.5, 453, 460.1 və 1306.1-ci maddələri konteksində şərh edilməsinə dair;*

*- "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinin həmin Qanunun 3.1.2, 4.1, 10.2, 13.1, 13.2, 50.1, 52.1-ci və 58.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*

*- "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 81.1 və 81.3-cü maddələri ilə Azərbaycan Respublikası İnzibati Prossesual Məcəlləsinin 131 və 132-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsi ilə əlaqəli şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 2, 3 və 882-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 202 və 203 maddələrinin əlaqəli şərh edilməsinə dair;*

*- "İcra haqqında" Azərbaycan Respublikasının Qanununun 26, 78.1 və 87.1-ci maddələrinin və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci*

*maddəsinin Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 228 - 232-ci və 236-cı maddələrinin normaları ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsi və İXM-nin 192.1-ci maddəsinin əlaqəli şəkildə edilməsinə dair;*

*- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43.4, 128.2.3-cü maddələrinin həmin Məcəllənin 129.4-cü maddəsi ilə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 6-cı maddəsinin 208-ci maddəsi və Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin V hissəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*

*- "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 19-cu maddəsinin 3-cü hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 61-ci və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 16.1, 560.2 və 560.3.3 əlaqəli şəkildə şərh edilməsinə dair;*

*- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 47-ci maddəsinin "f" bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair.*

**8.** 2023-cü il iyunun 16-da Konstitusiya Məhkəməsi, Milli Məclis, Ədliyyə Nazirliyi, Notariat Palatası, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi"nin nümayəndələri, Ali Məhkəmənin və apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının hakimləri, habelə Ali Məhkəmənin Elmi-məsləhət şurasının üzvlərinin iştirakı ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində "Mülki qanunvericiliyin vərəsəliklə bağlı müddəalarının tətbiqi təcrübəsində mövcud problemlər: mirasın qəbulu və mirasdan imtina institutları" mövzusunda dəyirmi masa təşkil edilmişdir.

**9.** Mülki Kollegiya tərəfindən Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurasının 2023-cü ilin 23 iyun tarixli iclasında "Əmlak münasibətlərində vicdanlı alıcı-mübahisəli hüquqi məsələ və məhkəmə təcrübəsinin aktual problemləri" mövzusunda müzakirələr təşkil edilmişdir.

**10.** Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən həyata keçirilən "Femida Dialoq Platforması" çərçivəsində media orqanları, vəkillər, sahibkarlar və Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin üzvləri ilə görüşlər keçirilmiş, müzakirə edilən mülki xarakterli problemlərin həlli istiqamətində tədbirlər görülmüşdür.

**11.** Mülki Kollegiya tərəfindən vətəndaşların şikayət və məhkəməyə çatımlılıq hüququnun tam təmin edilməsi istiqamətində aparılmış təhlillər nəticəsində kassasiya şikayətlərinin tərtibatında yol verilmiş prosessual pozuntuların aradan qaldırılması üçün "Mülki işlər üzrə kassasiya şikayətlərinin tərtibi ilə bağlı problemlərin təhlili" bağlı maarifləndirici videoçarx hazırlanaraq ictimaiyyətin diqqətinə çatdırılmışdır.

**12.** Mülki Kollegiyanın hakimləri tərəfindən televiziya yayımı vasitəsi ilə məhkəmələrdə mülki işlərə baxılmasının xüsusiyyətləri, məhkəmə sistemində müasir çağırışlar, məhkəməyə müraciət və şikayət verilməsi qaydaları, mülki xarakterli problemlərin hüquqi və praktiki həlləri və digər mövzularda maarifləndirici çıxışlar edilmişdir.

**13.** 2023-cü ilin 19 may tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının tərəfdaşlığı ilə "Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət" mövzusunda konfrans keçirilmiş, konfransda Mülki Kollegiyanın hakimləri konkret mövzular üzrə çıxışlar etmişlər.

**14.** 2023-cü ilin 15 dekabr tarixində "ADA" Universitetinin təşəbbüsü ilə "Azərbaycan Respublikasında ilk Mülki Məcəllə: 100 illik tarix" adlı Elmi konfrans baş tutmuş, Konfransda Mülki Kollegiyasının sədri "Mülki Məcəllə: yeniliklər və müasir çağırışlar" mövzusunda

məruzəçi qismində çıxış etmiş və konfrans iştirakçıları ilə mülki qanunvericiliyin tətbiqində mövcud problemlər ətrafında müzakirələr aparılmışdır.

**15.** 2023-cü ilin ikinci yarısında “Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi Qaydaları” barədə ətraflı məlumat və tətbiqi üsulları online videokonfrans vasitəsilə respublika üzrə fəaliyyət göstərən hakimlərin diqqətinə çatdırılmış, Qaydaların tətbiqi üsulları, Ali Məhkəmə tərəfindən yaradılan yeni qərar axtarış sisteminin üstünlükləri barədə izahlar verilmişdir. Həmçinin, 2023-cü ilin ikinci yarısından etibarən online videokonfrans vasitəsilə respublika üzrə fəaliyyət göstərən hakimlərin iştirakı ilə məhkəmələrə mülki işlərə baxılması zamanı ortaya çıxan problemlərin həlli istiqamətində sual-cavab formatında görüşlər keçirilməkdədir.

**16.** 2023-cü ildə 61 hakimin qiymətləndirilməsinə dair rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

**17.** 2023-cü il ərzində Mülki kollegiyanın sədri tərəfindən 222 vətəndaşın qəbulu həyata keçrilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2023-cü il üzrə icraatında olan işlərinə dair məlumat**

**I.** 2023-cü ildə Mülki Kollegiyanın kassasiya icraatında cəmi 5597 iş olmuşdur. Onlardan 867 (15.5%) iş 2022-ci ildən qalıq keçmiş, 4730 iş (84.5%) isə 2023-cü il ərzində daxil olmuşdur. 2022-ci illə müqayisədə icraatda olan işlərin sayı 1688 (23.2%) iş azalmışdır. Belə ki, 2022-ci ildə Mülki Kollegiyanın icraatında cəmi 7285 iş olmuşdur. Onlardan 1150 (15.8%) iş 2021-ci ildən qalıq keçmiş, 6135 iş (84.2%) isə 2022-ci il ərzində daxil olmuşdur.




2023-cü ildə Mülki Kollegiyanın plenum icraatında cəmi 404 iş olmuşdur. Onlardan 281 (69.9%) müraciət əlavə kassasiya şikayətləri, 112 (27.7%) müraciət yeni açılmış hallarla bağlı ərizə və 11 (2.7%) Plenum baxışına çıxarılmış işlərdən ibarət olmuşdur. 2022-ci illə müqayisədə plenum icraatı üzrə müraciətlərin sayı 93 iş (29.9%) artmışdır. Belə ki, 2022-ci ildə Mülki Kollegiyanın plenum icraatında cəmi 311 iş olmuş, onlardan 245 (78.8%) müraciət əlavə kassasiya şikayətləri, 53 (17%) müraciət yeni açılmış hallarla bağlı ərizə və 11 (4.2%) Plenum baxışına çıxarılmış işlərdən ibarət olmuşdur.



2023-cü ildə Mülki Kollegiyanın kassasiya icraatında olmuş işlərin 2022-ci illə müqayisəsindən görünür ki, 2023-cü ildə icraatda olan işlərin sayı 1688 iş (23,1%) azalmışdır.




2023-cü ildə Mülki Kollegiyanın plenum icraatında olmuş işlərin 2022-ci illə müqayisəsindən görünür ki, 2023-cü ildə icraatda olan işlərin sayı 93 iş (29.9%) artmışdır.



**II.** 2023-cü ildə Mülki Kollegiyanın kassasiya icraatında olan 5597 işdən 5246-sı mülki iş, 345-i xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı iş, 6-sı isə məhkəmə qərarlarının icrası ilə bağlı kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri daxilində olan müraciətlər üzrə iş olmuşdur. 2022-ci ildə icraatda olan 7285 işdən 7011-i mülki iş, 268-i xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı iş, 6-sı məhkəmə qərarlarının icrası ilə bağlı kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri daxilində olan müraciətlər üzrə 6 iş olmuşdur.




2023-cü ildə Mülki Kollegiyanın icraatında olmuş 5246 mülki işdən 834 (15.9%) iş 2022-ci ildən qalıq keçmiş, 4412 iş (84.1%) isə 2023-cü il ərzində daxil olmuşdur. 2022-ci illə müqayisədə icraatda olan işlərin 1765 (25.2%) iş azalmışdır. Belə ki, 2022-ci ildə Mülki Kollegiyanın icraatında olmuş 7011 mülki işdən 1114 (15.9%) iş 2021-ci ildən qalıq keçmiş, 5897 iş (84.1%) isə 2022-ci il ərzində daxil olmuşdur.



**III.** Mülki kollegiyanın icraatına 2019-cu ildə 8290 iş, 2020-ci ildə 6061 iş, 2021-ci ildə 6126 iş, 2022-ci ildə 5897 iş, 2023-cü ildə isə 4412 mülki iş daxil olmuşdur.

Göründüyü kimi, Məhkəmənin Mülki kollegiyasının icraatına daxil olan yeni işlərin sayında sabit azalma müşahidə olunsa da, ötən illə müqayisədə daxil olan işlərin faiz nisbətlərinin fərqinə görə 0.3 faiz artım müşahidə edilmişdir.




**IV.** 2023-cü il də Kollegiyanın icraatında olan 5246 mülki işdən 4624 (88.1%) iş yekunlaşmış, 622 (11.9%) iş növbəti ilə qalıq kimi keçmişdir.

**Qeyd**: İl ərzində yekunlaşmış işlərə, baxılmış, baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmış, aidiyyət mübahisələri ilə bağlı və maraqlarına toxunan şəxsin ərizələrinə dair işlərin cəmi daxildir.



**V.** 2023-cü ildə Mülki Kollegiyada mahiyyəti üzrə baxılmış işlərin sayı isə 4024 iş (76.7%) olmuş, 2022-ci ildə isə 5334 işə (76%) baxılmışdır. 2022-2023-cü illər üzrə Mülki Kollegiyada baxılmış işlərin müqayisəli təhlilindən görünür ki, baxılmış işlərin sayı 1310 iş azalsa da, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmış işlərin faiz nisbətinin göstəricisi 0.7% artmışdır.




***Qeyd***: *Mahiyyəti üzrə baxılmış işlərə məhkəmə aidiyyəti mübahisələri ilə bağlı olmuş işlər, geri qaytarılmış işlər və maraqlarına toxunan şəxslərin ərizələri istisna olmaqla, apellyasiya instansiyası məhkəmələrinin qərardad və qətnamələrindən verilmiş şikayətlər üzrə baxılmış işlər və kassasiya icraatına xitam verilmiş işlər daxildir.*

**VI.** 2023-cü ildə 5246 mülki işdən 622 (11.9%) iş 2024-cü ilə qalıq kimi keçmiş, 2022-ci ildə isə Mülki Kollegiyanın icraatında olan 7011 mülki işdən 834 (11.9%) iş 2023-cü ilə qalıq kimi keçmiş, 2022-2023-cü illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, növbəti ilə qalıq keçmiş işlərin sayı 212 iş azalsa da, icraatda olan mülki işlərlə növbəti ilə qalıq kimi keçən işlərin faiz nisbətinin göstəricisi eyni qalmışdır.



**VII.** 2023-cü ildə isə Kollegiyanın icraatında olan 5246 mülki işdən 4624 işə (88.1%) baxılması yekunlaşmış, 2022-ci ildə isə 7011 mülki işdən 6177 işə (88.1%) baxılması yekunlaşmışdır. 2022-2023-cü illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, yekunlaşmış işlərin sayı 1553 iş azalsa da, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə yekunlaşmış işlərin faiz nisbətinin göstəricisində dəyişiklik müşahidə edilməmişdir.




**VIII.** 2023-cü ildə Kollegiyanın icraatında olan 5246 işdən 505 iş (9.6%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. 2022-ci ildə isə 7011 işdən 750 iş (10.7%) baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılmışdır. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin sayı 245 iş, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 1.1% azalmışdır.



2023-cü il ərzində Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən 505 mülki iş üzrə kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılmış və ya kassasiya baxışından çıxarılmışdır.

Bu işlərdən işdə iştirak etməyə cəlb edilməyən, maraqlarına toxunan şəxslərin ərizələri üzrə icraata qəbul edilmiş 8 iş üzrə ərizə geri qaytarılmış, aidiyyət mübahisələrinə dair işlərdən isə 21 iş üzrə kassasiya şikayəti qeyri-mümkün hesab edilmişdir.

476 mülki işdən isə 427 iş üzrə kassasiya şikayətinə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadığından kassasiya şikayətləri qeyri-mümkün hesab edilmiş və ya icraata qəbul edilmədən məktubla geri qaytarılmış, 49 iş üzrə isə kassasiya şikayətləri icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə müraciət etdiyi və ya kassasiya şikayətinin qanunvericiliyin tələblərinə zidd olaraq icraata qəbul olunması müəyyən olunduğundan icraata qəbul qərardadı ləğv edilərək iş kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytarılmışdır.

| *Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə əsas olmuş nöqsanlar (448 iş üzrə)* | |
|---|---|
| Əmlak xarakterli iddialar üzrə qətnamənin mübahisələndirilən hissəsində iddianın qiymətinin 5000 manatdan az olması (MPM 402.1) | 66 |
| Kassasiya şikayətinin forması və məzmunu ilə bağlı tələblərin pozulması, o cümlədən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olmasının qeyd edilməməsi (MPM 407.1, 408.1.5) | 116 |
| Vəkil orderinin və ya dövlət rüsumunun şikayətə əlavə edilməməsi (MPM 407.4) | 60 |
| Kassasiya şikayətinin prosessual müddət ötürülməklə verilməsi (MPM 408.1.4) | 82 |
| Kassasiya şikayətinin imzalanmaması, yaxud hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanması (MPM 408.1.1) | 61 |
| Kassasiya şikayəti verilməsi mümkün olmayan qərardadlardan şikayət verilməsi (MPM 402.2) | 16 |
| Kassasiya şikayəti ilə müraciət etmək hüququ olmayan şəxsin kassasiya şikayəti verməsi (MPM 403.1) | 30 |
| Kassasiya şikayətinin elektron qaydada verilməməsi (MPM 408.1.7) | 11 |
| İşin kassasiya instansiyası məhkəməsinə göndərilməsinə riayət edilməməsi (MPM 409) | 6 |

**IX.** 2023-cü ildə yekunlaşmış 4532 işdən 71 iş (1.5%) aidiyyət mübahisələri ilə bağlı olmuş, 2022-ci ildə isə bu rəqəm, 6177 işdən 93 iş (1.5%) olmuşdur. 2022-2023-cü illər üzrə müqayisədə aidiyyət mübahisələri ilə bağlı işlərin sayı 22 iş azalmış, bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə aidiyyət mübahisələri ilə bağlı işlərin faiz nisbətinin göstəricisində dəyişiklik müşahidə edilməmişdir.




2023-cü ildə Mülki Kollegiyada aidiyyət mübahisələri ilə bağlı olan baxılmış 71 işdən 6 iş üzrə (8.4%) məhkəmələr arasındakı fikir ayrılığı kassasiya qaydasında həll edilmiş, 21 iş üzrə (29.6%) aidiyyət məsələsi həll edilərək birinci instansiya məhkəmələrinin qəbul etdiyi qərardadlar ləğv edilmiş və baxılması üçün həmin məhkəmələrə qaytarılmış, 44 iş (62%) üzrə isə birinci instansiya məhkəmələrinin qəbul etdiyi qərardadlar dəyişdirilmədən saxlanılmışdır.



**X.** 2023-cü ildə baxılmış 4024 işdən 3080 (76.5%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 889 (22.1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 40 (1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 15 (0.4%) iş üzrə kassasiya icraatına xitam verilmişdir. *Qətnamə və ya qərardadı ləğv edilmiş 889 işdən 10 iş (0,3%) üzrə apellyasiya instansiya məhkəməsinin qəbul etdiyi məhkəmə aktları iddiadan imtina və ya barışıq sazişinin təsdiq edilməsi ilə əsası ilə ləğv edilmişdir.*

2022-ci ildə baxılmış 5334 işdən 4056 (76%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 1215 (22.8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 47 (0.9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 16 (0.3%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.




**XI.** 2023-cü ildə dəyişdirilmədən saxlanılan 3080 iş Kollegiyada baxılmış 4024 işin 76.5%-ni təşkil etmişdir. 2022-ci ildə isə dəyişdirilmədən saxlanılan 4056 iş Kollegiyada baxılmış 5334 işin 76%-ni təşkil etmişdir. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə dəyişdirilmədən saxlanılan işlərin sayı 976 iş azalsa da, bu illər üzrə baxılmış işlərlə dəyişdirilmədən saxlanılan işlərin faiz nisbətinin göstəricisi 0.5% artmışdır.



**XII.** 2023-ci ildə ləğv edilən 889 iş baxılmış 4024 işin 22.1%-ni təşkil etmiş, 2022-ci ildə isə məhkəmə aktı ləğv edilən 1215 iş baxılmış 5334 işin 22.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə məhkəmə aktı ləğv edilən işlərin sayı 326 iş, bu illər üzrə baxılmış işlərlə ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 0.7% azalmışdır.




***Qətnamə və ya qərardadı ləğv edilmiş 889 işdən 10 iş üzrə apellyasiya instansiya məhkəməsinin qəbul etdiyi məhkəmə aktları iddiadan imtina və ya barışıq sazişinin təsdiq edilməsi ilə əsası ilə ləğv edildiyindən, bu hesabatlardan etibarən qeyd edilən əsaslarla ləğv edilən işlərin sayı hesablamalar zamanı ləğv faizi kimi statistikaya cəlb edilməmişdir.***

2023-cü ildə kassasiya icraatına xitam verilən 15 iş baxılmış 4024 işin 0.4%-ni təşkil etmiş, 2022-ci ildə isə kassasiya icraatına xitam verilən 16 iş baxılmış 5334 işin 0.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə kassasiya icraatına xitam verilən işlərin sayı 1 iş azalmış, bu illər üzrə baxılmış işlərlə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0,1% artmışdır.



2023-cü ildə məhkəmə aktı dəyişdirilən 40 iş Kollegiyada baxılan 4024 işin 1%-ni təşkil etmiş, 2022-ci ildə isə məhkəmə aktı dəyişdirilən 47 iş Kollegiyada baxılan 5334 işin 0.9%-ni təşkil etmişdir. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 7 iş azalsa da, bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.1% artmışdır.




2023-cü ildə məhkəmə aktı ləğv edilən 879 işdən 750 (85.4%) iş yeni apellyasiya baxışına göndərilmiş, 100 (11.3%) iş üzrə yeni qərar qəbul edilmiş, 29 iş (3.3%) iş üzrə icraata digər əsaslarla xitam verilmişdir.



2022-ci ildə məhkəmə aktı ləğv edilən 1215 işdən 976 (80.3%) iş yeni apellyasiya baxışına göndərilmiş, 168 (13.8%) iş üzrə yeni qərar qəbul edilmiş, 7 (0.6%) iş baxılmamış saxlanılmış, 64 (5.3%) iş üzrə icraata xitam verilmişdir.




2023-cü ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 29 iş ləğv edilən 879 işin 3.3%-ni təşkil etmişdir. 2022-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 64 iş ləğv edilən 1215 işin 5.3%-ni təşkil etmişdir. Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən işlərin sayı 35 iş, bu illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iş üzrə icraata xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 2% azalmışdır.



2023-cü ildən etibarən işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin ərizələri üzrə işlər də mülki iş kimi qeydiyyatdan keçərək Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatına verilmişdir. Hesabat ili ərzində bu müraciətlər üzrə 24 iş qeydiyyatdan keçmişdir.




**XIII.** Aşağıdakı diaqramda 2022-2023-cü illər üzrə Mülki Kollegiyanın icraatında olmuş işlərin göstəricilərinin faiz nisbətində nə qədər azalıb-artması göstərilmişdir.



## XIV. 2023-cü ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin (4024) və baxılıb məhkəmə aktı ləğv edilən işlərin (879) kateqoriyalar üzrə bölgüsü

| İndeks № | İddianın kateqoriyası | Baxılmış işlərin sayı | Faiz[1] | Ləğv olunmuş işlərin sayı | Faiz[2] |
|---|---|---|---|---|---|
| 1. | Ailə münasibətləri üzrə mübahisələr | 507 | 12.6% | 88 | 17.3% |
| 9. | Əmək mübahisələri | 232 | 5.7% | 52 | 22.4% |
| 13. | Mənzil mübahisələri | 457 | 11.4% | 97 | 21.2% |
| 14. | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 199 | 4.9% | 55 | 27.6% |
| 16. | Torpaq mübahisələri | 208 | 5.2% | 66 | 31.7% |
| 18. | Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi və məcburi bağlanması | 272 | 6.8% | 55 | 20.2% |
| 23. | Borc müqaviləsi üzrə mübahisələr | 250 | 6.2% | 34 | 13.6% |
| 24. | Kredit müqaviləsi (Bank və ya BOKT ilə bağlanan müqavilələr) üzrə mübahisələr | 563 | 14% | 102 | 18.1% |
| 20-22, 25-32 | Digər müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr | 355 | 8.8% | 103 | 29% |
| 33. | Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 335 | 8.3% | 66 | 19.7% |
| 34. | Vərəsəlik hüququ üzrə mübahisələr | 163 | 4.1% | 47 | 28.8% |
| 41. | Xüsusi icraat işləri üzrə | 41 | 1% | 10 | 24.4% |
| 56. | Şərəf və ləyaqətin müdafiəsi üzrə | 55 | 1.4% | 11 | 20% |
| 57. | Sair mülki işlər | 387 | 9.6% | 93 | 24% |

[1] Hər kateqoriya üzrə baxılmış işlərin sayının Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan ümumi işlərə münasibətdə faizlə göstəricisi.

[2] Hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi.

## 2022-2023-cü illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin (5334/4024) kateqoriyalar üzrə bölgüsü



## 2022-2023-cü illərdə Ali Məhkəmənin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş işlərin (1215/879) kateqoriyalar üzrə bölgüsü

*QEYD: Diaqramda hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi verilmişdir.*



**XV.** 2023-cü ildə Mülki Kollegiyanın icraatında baxılmış 4024 mülki işdən 485 (12%) iş təkrarən kassasiya icraatında baxılmışdır. 2022-ci ildə Mülki Kollegiyanın icraatında baxılmış 5334 işdən 662 (12.4%) iş təkrarən kassasiya icraatında baxılmışdır. Bu illər üzrə baxılmış işlərlə kassasiya icraatında təkrarən baxılan işlərin faiz nisbətinin göstəricisi 0.4% azalmışdır.




**2023**-cü ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 485 mülki işdən 366 iş (75.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmış, 75 iş (15.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yenidən ləğv edilib, təkrar apellyasiya baxışına göndərilmiş, 28 iş (5.8%) üzrə yeni qərar qəbul edilmiş, 10 iş (2%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilərək icraata xitam verilmiş, 4 iş (0.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv və ya qismən ləğv edilmiş, 2 iş (0.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmişdir.

**2022**-ci ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 662 mülki işdən 508 iş (76.7%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmış, 89 iş (13.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi yenidən ləğv edilib, təkrar apellyasiya baxışına göndərilmiş, 41 iş (6.2%) üzrə yeni qərar qəbul edilmiş, 24 iş (9.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilərək icraata xitam verilmişdir.



2023-cü ildə Mülki Kollegiyanın icraatında təkrar baxılmış 485 işdən 21 iş (4.3%) üzrə Ali Məhkəmənin Mülki kollegiyasının əvvəlki göstərişləri icra olunmadığından, 47 iş (9.6%) üzrə isə göstərişlər qismən icra edildiyindən apellyasiya instansiyası məhkəməsinin qətnaməsi ləğv edilmişdir. 485 işdən 39 iş (8%) üzrə Ali Məhkəmənin əvvəlki göstərişləri tam icra edilsə də, apellyasiya instansiyası məhkəməsi tərəfindən digər maddi və prosessual hüquq normaları pozulduğundan məhkəmə qətnaməsi ləğv edilmişdir.






**XVI.** 2023-cü ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 345 ərizə olmuşdur. Onlardan 33 (9.6%) ərizə 2022-ci ildən qalıq keçmiş, 312 (90.4%) ərizə 2023-cü il ərzində daxil olmuşdur. 284 (82.3%) ərizəyə baxılmış, 22 (6.3%) ərizə geri qaytarılmış, 39 (11.3%) ərizə 2024-cü ilə qalıq keçmişdir.

2022-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 268 ərizə olmuşdur. Onlardan 36 (13.4%) ərizə 2021-ci ildən qalıq keçmiş, 232 (86.6%) ərizə 2022-ci il ərzində daxil olmuşdur. 217 (81%) ərizəyə baxılmış, 18 (6.7%) ərizə geri qaytarılmış, 33 (12.3%) ərizə 2023-ci ilə qalıq keçmişdir.

2022-2023-cü illər üzrə müqayisə etdikdə görünür ki, 2023-cü ildə Mülki Kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 77 (28.7%) ərizə artmışdır.




2023-cü ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 284 ərizədən 278 (97.9%) ərizə təmin edilmiş, 6 (2.1%) ərizə rədd edilmişdir.

2022-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyası hakimlərinin icraatında baxılmış Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 217 ərizədən 210 (96.8%) ərizə təmin edilmiş, 17 (3.2%) ərizə rədd edilmişdir.


Azərbaycan Respublikasında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı baxılmış işlərin nəticələrinin müqayisəli təhlili
300
250
200
150
100
50
0
210
96.8%
17
3.2%
278
97.9%
6
2.1%
2022-ci il
2023-cü il
Təmin edilmiş
Rədd edilmiş


Mülki Kollegiyanın icraatındakı xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı işlərin 2022-2023-cü illər üzrə müqayisəli təhlili
90
80
70
60
50
40
30
20
10
0
77
28.7%
67
30.9%
68
32.4%
1
14.3
%
4
22.2%
3
18.2%
İcraatda olan (artıb)
Baxılmış (artıb)
Təmin edilmiş (artıb)
Rədd edilmiş (azalıb)
Geri qaytarılan (artıb)
Növbəti ilə qalıq kimi keçən işlər (azalıb)

**Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin**

**apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili**


2023-CÜ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ MÜLKİ İŞLƏRİN (4024 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 390 iş ; 9.7%
Naxçıvan MR Ali Məhkəməsi; 30 iş; 0.75%
Şirvan Apellyasiya Məhkəməsi; 349 iş; 8.67%
Sumqayıt Apellyasiya Məhkəməsi; 510 iş; 12.67%
Bakı Apellyasiya Məhkəməsi; 2198 iş; 54.61%
Gəncə Apellyasiya Məhkəməsi; 547 iş; 13.6%


2022-Cİ İLDƏ MÜLKİ KOLLEGİYADA BAXILMIŞ İŞLƏRİN (5334 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 449 iş ; 8.41%
Naxçıvan MR Ali Məhkəməsi; 19 iş; 0.35%
Şirvan Apellyasiya Məhkəməsi; 654 iş; 12.26%
Bakı Apellyasiya Məhkəməsi; 2867 iş; 53.74%
Sumqayıt Apellyasiya Məhkəməsi; 652 iş; 12.22%
Gəncə Apellyasiya Məhkəməsi; 693 iş; 12.99%




Diaqramlardan göründüyü kimi, 2023-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış 4024 işdən 2198 iş (54.61%) Bakı Apellyasiya Məhkəməsindən, 547 iş (13.6%) Gəncə Apellyasiya Məhkəməsindən, 510 iş (12.67%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 349 iş (8.67%) Şirvan Apellyasiya Məhkəməsindən, 390 iş (9.7%) Şəki Apellyasiya Məhkəməsindən, 30 iş (0.75%) isə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən daxil olmuşdur.

2023-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında iddiadan imtina və barışıq sazişi ilə bağlı ləğv edilmiş aktlar məhkəmələr və hakimlər üzrə olan ləğv faizlərinin hesablanması zamanı nəzərə alınmamış, yalnız mahiyyəti üzrə ləğv edilən məhkəmə aktlarının statistikası işlənmişdir. Belə ki, ləğv edilmiş 879 işdən 440 iş (50.1%) Bakı Apellyasiya Məhkəməsindən, 110 iş (12.5%) Gəncə Apellyasiya Məhkəməsindən, 145 iş (16.5%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 96 iş (11%) Şirvan Apellyasiya Məhkəməsindən, 85 iş (9.6%) Şəki Apellyasiya Məhkəməsindən, 3 iş (0.3%) Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuşdur.

**Apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış işlərə münasibətdə 2021-2023-cü illər üzrə faiz göstəriciləri**

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 24% | 22% | 20% |
| Gəncə Apellyasiya Məhkəməsi | 22.6% | 23.7% | 20.1% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 29.7% | 23.9% | 28.4% |
| Şirvan Apellyasiya Məhkəməsi | 29.9% | 25.7% | 24.6% |
| Şəki Apellyasiya Məhkəməsi | 26.6% | 20.5% | 24.4% |
| Naxçıvan MR Ali Məhkəməsi | 14.3% | 21.1% | 10% |

**2021-2023-cü illər üzrə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin faiz göstəricilərinin müqayisəsi**



2023-cü il ərzində Mülki Kollegiya tərəfindən kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş 448 mülki işdən 213 iş Bakı Apellyasiya Məhkəməsindən, 67 mülki iş Sumqayıt Apellyasiya Məhkəməsindən, 59 mülki iş Gəncə Apellyasiya Məhkəməsindən, 56 mülki iş Şirvan Apellyasiya Məhkəməsindən, 32 mülki iş Şəki Apellyasiya Məhkəməsindən, 21 mülki iş birinci instansiya məhkəmələrindən daxil olmuşdur.

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | Kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılan işlərin sayı |
|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 213 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 67 |
| Gəncə Apellyasiya Məhkəməsi | 59 |
| Şirvan Apellyasiya Məhkəməsi | 56 |
| Şəki Apellyasiya Məhkəməsi | 32 |
| Birinci instansiya məhkəmələri | 21 |
| 1) Xətai Rayon Məhkəməsi | 3 |
| 2) Yasamal Rayon Məhkəməsi | 2 |
| 3) Gəncə Şəhər Məhkəməsi | 2 |
| 4) Nərimanov Rayon Məhkəməsi | 2 |
| 5) Nəsimi Rayon Məhkəməsi | 2 |
| 6) Lənkəran Rayon Məhkəməsi | 1 |
| 7) Naxçıvan Şəhər Məhkəməsi | 1 |
| 8) Goranboy Rayon Məhkəməsi | 1 |
| 9) Göygöl Rayon Məhkəməsi | 1 |
| 10) Qaradağ Rayon Məhkəməsi | 1 |
| 11) Quba Rayon Məhkəməsi | 1 |
| 12) Səbail Rayon Məhkəməsi | 1 |
| 13) Abşeron Rayon Məhkəməsi | 1 |
| 14) Xəzər Rayon Məhkəməsi | 1 |
| 15) Binəqədi Rayon Məhkəməsi | 1 |

# BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 2198 işə baxılmış, 1719 iş (78.2%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar ləğv edilmiş 7 iş istisna olmaqla (bu işlər 0.3% təşkil edir) 440 iş (20%) üzrə məhkəmə aktı ləğv edilmiş, 22 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 10 iş (0.5%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 2867 işə baxılmış, 2207 iş (77%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 631 iş (22%) üzrə məhkəmə aktı ləğv edilmiş, 21 iş (0.7%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 8 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin sayı 669 iş (23.3%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 1.2% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 2% azalmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.3%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.4% artmışdır.






Diaqramlardan göründüyü kimi, Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində sabit azalma müşahidə edilir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 440 işdən 46 iş (10.5%) üzrə yeni qərar qəbul edilmiş, 381 iş (86.6%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 13 iş (2.9%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi istisna olmaqla digər prosessual əsaslarla ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 631 işdən 83 iş (13.2%) üzrə yeni qərar qəbul edilmiş, 513 iş (81.3%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 2 iş (0.3%) üzrə ərizə baxılmamış saxlanılmış, 33 iş (5.2%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



# GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 547 işə baxılmış, 429 iş (78.4%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar ləğv edilmiş 2 iş istisna olmaqla (bu işlər 0.4% təşkil edir) 110 iş (20.1%) üzrə məhkəmə aktı ləğv edilmiş, 6 iş (1.1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmişdir.

2022-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 693 işə baxılmış, 520 iş (75%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 164 iş (23.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 6 iş (0.9%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 3 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin sayı 146 iş (21%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 3.4% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 3.6% azalmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.2% artmışdır.






*Diaqramlardan göründüyü kimi, Gəncə Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021 - 2022-ci illər üzrə artım, 2022-2023-cü illər üzrə kəskin azalma müşahidə edilir.*

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 110 işdən 18 iş (16.4%) üzrə yeni qərar qəbul edilmiş, 85 iş (77.3%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (6.3%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi istisna olmaqla digər prosessual əsaslarla ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 164 işdən 28 iş (17.1%) üzrə yeni qərar qəbul edilmiş, 127 iş (77.4%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (4.3%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 2 iş (1.2%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.



# SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 510 işə baxılmış, 356 iş (69.8%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar ləğv edilmiş 1 iş istisna olmaqla (bu işlər 0.2% təşkil edir) 145 iş (28.4%) üzrə məhkəmə aktı ləğv edilmiş, 6 iş (1.2%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 652 işə baxılmış, 491 iş (75.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 156 iş (23.9%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin sayı 142 iş (21.7%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 5.5% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 4.5% artmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 3 iş artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.7% artmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi 0.1% artmışdır.






*Diaqramlardan göründüyü kimi, Sumqayıt Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021 – 2022-ci illər üzrə kəskin azalma, 2022-2023-cü illər üzrə isə kəskin artım müşahidə edilir.*

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 145 işdən 15 iş (10.3%) üzrə yeni qərar qəbul edilmiş, 125 iş (86.2%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 5 iş (3.5%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi istisna olmaqla digər prosessual əsaslarla ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 156 işdən 24 iş (15.4%) üzrə yeni qərar qəbul edilmiş, 125 iş (80.1%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (4.5%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



# ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 390 işə baxılmış, 290 iş (74.4%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 96 iş (24.6%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.7%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 654 işə baxılmış, 474 iş (72.5%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 168 iş (25.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 10 iş (1.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlər 264 iş (40%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 1.9% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 1.1% azalmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.8% azalmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə eyni olmuşdur.






*Diaqramlardan göründüyü kimi, Şirvan Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021 - 2023-cü illər üzrə azalma müşahidə edilir.*

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 96 işdən 10 iş (10.4%) üzrə yeni qərar qəbul edilmiş, 85 iş (88.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (1.1%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi istisna olmaqla digər prosessual əsaslarla ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 168 işdən 22 iş (13.1%) üzrə yeni qərar qəbul edilmiş, 136 iş (80.9%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 8 iş (4.8%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 2 iş (1.2%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.



# ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 349 işə baxılmış, 260 iş (74.5%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 85 iş (24.4%) üzrə məhkəmə aktı ləğv edilmiş, 3 iş (0.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.3%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 449 işə baxılmış, 349 iş (77.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 92 iş (20.5%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1.6%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 1 iş (0.2%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin sayı 149 iş (22.2%), azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 3.2% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 3.9% artmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 4 iş, faiz nisbətinin göstəricisi isə 0.7% azalmışdır. Kassasiya icraatına xitam verilən işlərin sayı eyni olmuş (1 iş), faiz nisbətinin göstəricisi 0.1% artmışdır.






*Diaqramlardan göründüyü kimi, Şəki Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021 - 2022-ci illər üzrə kəskin azalma, 2022-2023-cü illər üzrə isə kəskin artma müşahidə edilir.*

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 85 işdən 11 iş (13%) üzrə yeni qərar qəbul edilmiş, 72 iş (84.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 2 iş (2.3%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi istisna olmaqla digər prosessual əsaslarla ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 92 işdən 11 iş (11.9%) üzrə yeni qərar qəbul edilmiş, 72 iş (78.3%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 8 iş (8.7%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (1.1%) üzrə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılmışdır.



## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

2023-cü ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 30 işə baxılmış, 26 iş (86.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 3 iş (10%) üzrə məhkəmə aktı ləğv edilmiş, 1 iş (3.3%) üzrə iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar olmayan digər prosessual səbəblərlə ləğv edilərək işin icraatına xitam verilmişdir.

2022-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 19 işə baxılmış, 15 iş (78.9%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 iş (21.1%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

Göründüyü kimi, 2022-ci illə müqayisədə 2023-cü ildə baxılmış işlərin sayı 11 iş (57.8%) artmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 7.8% artmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 11.1% azalmışdır.






*Diaqramlardan göründüyü kimi, Naxçıvan MR Ali Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2021-2022-ci il üzrə kəskin artım müşahidə edilsə də, 2022-2023-cü il üzrə kəskin azalma müşahidə edilmişdir.*

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2023-cü ildə məhkəmə aktı ləğv edilən 3 işdən 2 iş (66.67%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (33.33%) üzrə məhkəmə aktı iddiadan imtina və barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar olmayan digər prosessual əsaslarla ləğv edilib, iş üzrə icraata xitam verilmişdir.

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2022-ci ildə məhkəmə aktı ləğv edilən 4 işdən 3 iş (75%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (25%) üzrə məhkəmə aktı ləğv edilib, iş üzrə icraata xitam verilmişdir.

